**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AMERİKA SİYASİ DİSKURSUNDA POPULİST RİTORİKA

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: Filologiya

İddiaçı: **Məryam Xaliq qızı İsgəndərli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Rəna Teymur qızı Səfərəliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Xəyalə Ramiz qızı Əhmədova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Elnarə Eldar qızı Putayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurası.

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədr müavini: | ____________ | filologiya elmləri doktoru, dosent<br>**Həmidə Əhməd qızı Əliyeva** |
| Dissertasiya şurasının elmi katibi: | ____________ | filologiya elmləri doktoru, dosent<br>**Aysel İlqar qızı Məmmədbəyli** |
| Elmi seminarın sədri: | ____________ | filologiya elmləri doktoru, dosent<br>**Könül Elxan qızı Abdurəhmanova** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mövzunun aktuallığı populist siyasətçilərin nitqləri və mətnlərinin verbal imkanlarının dilçilik baxımından dərin təhlilinə artan elmi-nəzəri və praktik ehtiyacla şərtlənmişdir. Buna görə də siyasi konsept daşıyan populist ritorikanın səciyyəvi nitq janrı və tematik cəhətdən bütöv söyləm kimi dərindən təhlili zəruridir. Müasir siyasətdə siyasi dil, siyasi mətnlər, siyasi üslublar və linqvistik resursları əhatə edən verbal kommunikasiyalar vahid siyasi diskurs anlayışında cəmləşir. Siyasi liderlərin ictimai fikrə təsir məqsədi daşıyan nitqlərinin diskursiv təhlili populizmin ritorik strategiyaları və taktikalarının araşdırılmasını tələb edir. Dissertasiya işinin *aktuallığı* müasir Amerika siyasi diskursunda populist ritorikanın üslub xüsusiyyətləri, leksik-qrammatik reprezentantları və ifadə vasitələri, eləcə də ABŞ siyasətçilərinin ritorik kompetensiyası ilə bağlı bir sıra mübahisəli məsələlərin nəzərdən keçirilməsi ilə əlaqədardır.

Populistlərin “doğru – yalan” (“truth – lie”) leksik freymlərinin ikili qarşılaşması modelini formalaşdıraraq diskurs konseptləri ilə manipulyasiya üçün konseptual metaforu təmsil edən ritorik kompetensiyası müasir dilçiliyin əsas mübahisəli məsələlərdən biridir. Amerika populizminin substansional ənənəvi ideyalarının təkrar konseptuallaşmasının freyminq metodundan istifadə etməklə diskursiv tərtibinin tədqiqi dil vahidləri kimi təmsil olunan sabit koqnitiv strukturların leksik-semantik və üslubi transformasiyalarının təhlilində dilçilikdəki mövcud boşluğu doldurmağa imkan verir. Tədqiqat işində ABŞ-da müasir populist ritorikanın yeni nitq konseptləri və ikili qarşılaşma freymlərin yaranma prosesi tədqiq edilir və şərh olunur.

Tədqiqatın əhəmiyyəti müasir dilçilikdə virtual məkanda ictimai fikrə təsir göstərən nitq prosesləri və mətnlərə olan elmi-praktik maraqla şərtlənir. Müasir informasiya cəmiyyətində diskursun ayrıca dil vahidlərinin öyrənilməsindən siyasətçi-populistlərin fərdi sözlü strategiya və taktikalarının ritorik üslublarının kompleks təhlilinə keçid aktualdır. Populist ritorikanın leksik və sintaktik ifadə vasitələrinin bir çox aspekti ümumnəzəri paradiqm çərçivəsində

müəyyən dərəcədə araşdırılsa da, məhz Amerika populist ritorikasının səciyyəvi cəhətləri kifayət qədər işıqlandırılmamışdır.

Amerika populist ritorikasının rolu ABŞ-ın bütün siyasi diskursunun yeganə fundamental əsası kimi praktik olaraq tədqiq edilməmişdir. Amerika populizminin manipulyativ ritorik texnologiyalarının ABŞ siyasi diskursuna məxsus ənənəvi konseptlərin yenidən tərtibatı və informasiya cəmiyyətinin tələblərinə uyğun yeni konseptlərin yaradılması prosesi yetərincə tədqiq edilməmişdir. Hesab edirik ki, bu tədqiqat işi həmin boşluğu əhəmiyyətli dərəcədə dolduracaqdır.

Amerika populist diskursu manipulyasiyanın linqvistik strategiyalarını təkcə real deyil, həm də xəyali mühitdə də ilk mənimsəmişdir. Bu baxımdan müasir populist ritorikanın, manipulyativ strategiyalar və taktikalar diskursunun, diskursun əsas konseptlərinin verbal transformasiyasının, siyasətçilərin idioüslubları və onların surroqat spikerlərinin idiolektlərinin toplanması, sistemləşdirilməsi və tənqidi təhlili həm nəzəri, həm də dilçiliyin tətbiqi sahələri üçün mühüm əhəmiyyət kəsb edir.

Siyasi diskurs ritorikasının linqvistik təhlili ilə bağlı ümumi problemlər R.Vodak, L.Qudvin, T.A. van Deyk, S.Tim, M.Yorgensen və L.Fillips, R.Keller, M.Kenovan, K.Mudde, N.Postman, M.A.K.Hallidey, M.Halst, N.Xomski, M.Fuko, M.Tarko, C.Tompson, M.Edelman[1] və b-nın əsərlərində araşdırılmışdır.

---

[1] Wodak, R. Language and Politics. / In J. Culpeper, F. Katamba & Paul Kerswill (Eds.), English Language: Description, Variation and Context.//R.Wodak. – Basingstoke: Palgrave, – 2009. – 593 p.; Goodwyn, L. The Populist moment: a short history of the agrarian revolt in America / L. Goodwyn. – New York: Oxford University Press, – 1978. – 349 p.; Dijk, T.A. van. Principles of critical discourse analysis // Discourse & society, 1993. Vol. 4, № 2, – p. 249-283; Tim, S.-L. An Analysis of Jacques Derrida's Structure, Sign, and Play in the Discourse of the Human Sciences. /S.-L.Tim. –London: Macat Library, – 2018. – 112 p.; Jorgensen, M.W. Discourse Analysis as Theory and Method. / M.W. Jorgensen, L.J. Phillips. – Los Angeles: SAGE, – December 2002. – 229 p.; Keller, R. Doing Discourse Research: An Introduction for Linguistic Scientists. / R. Keller. – London: Sage, – 2012. – 176 p.; Canovan, M. Populism. / M. Canovan. – New York: Harcourt Brace Jovanovich, –1981. – 351 p.: Mudde, C. How populism became the concept that defines our age: [Electronic resource].URL: https:// www. the guardian.com/ commentisfree/2018/nov/22/ populism-concept-defines-our-age/; Postman, N.

Amerika siyasi ritorikasının üslubi və leksik xüsusiyyətlərinə aid bəzi məsələlər isə C.Anderson və S.Heller, A.Barselona, J.Beqiri, M.Boş və P.Frank, B.Brüqman, K.Uilson, O.Qnevek, M.Kessler, C.Littlemor, A.Rivz, A.Piz və P.Brüer, M.Uorton[2] və b. tərəfindən araşdırılmışdır.

---

Amusing Ourselves to Death: Public Discourse in the Age of Show Business / N. Postman. – London: Penguin Books, – 2005. – 208 p.; Halliday, M.A.K. Linguistic Studies of Text and Discourse. / M.A.K. Halliday. – London: A&C Black, – 2006. – 301 p.; Halliday, M.A.K. Introduction to Functional Grammar. /M.A.K. Halliday, C.M.I.M. Matthiessen. – Philadelphia: Routledge. 4th edition – July 10, – 2013. – 808 p.; Hulst, M.van. Discourse, framing and narrative: three ways of doing critical, interpretive policy analysis: [Electronic resource] / M.van Hulst, T.A.P. Metze, A. Dewulf. // Critical Policy Studies, – 2024. 19(1), p.74–96. URL: https://doi.org/10. 1080/ 19 460171.2024. 2326936; Chomsky, N. The Sound Pattern of English. / N. Chomsky, M.M. Halle. –Michigan: Harper & Row, –1968. – 470 p.; Фуко, М. Нужно защищать общество: Курс лекций, прочитанных в Коллеж де Франс в 1975-1976 уч. г. /М.Фуко. –Санкт-Петербург: Наука: – 2005. – 311 с.; Tarco, M. Populism: Ideology, Political Style, Mentality?: [Electronic resource] // Politologický časopis – Czech Journal of Political Science, – June 2016. 23(2), – p. 95-109. URL: https:// www. researchgate.net/publication/ 306008488_Populism_Ideology; Thompson, G. Systemic functional grammar. In: Key ideas in linguistics and the philosophy of language /G. Thompson. ed. by S. Chapman and Ch. Routledge. – Edinburgh: Edinburgh University Press, – 2009. – 260 p.; Murray, E. Political Language and Political Reality / E. Murray. – New-York: Academic Press, –1977. – 174 p.

[2] Anderson, G. Type Speaks: A Lexicon of Expressive, Emotional, and Symbolic Typefaces. / G. Anderson, H. Steven. – New York: Harry N. Abrams. – 2024. – 464 p.; Barcelona, A. Metaphor and Metonymy at the Crossroads: A Cognitive Perspective / A. Barcelona. – Boston: Walter de Gruyter, – 2003. – 356 p.; Beqiri, G. Ethos, Pathos, Logos: 3 Pillars of Public Speaking and Persuasion: [Electronic resource].URL:https://virtualspeech.com/blog/ethos-pathos-logos-public-speaking-persuasion.; Bosch, M.D., Franch P. In God We Trust, with God We Fight. Religion in U.S. Presidential War Rhetoric: From Johnson to Obama. // Journal of Media and Religion. An academic journal published by Taylor & Francis, – January 2017. vol.16, №1, – 32 p.; Brugman, B.C. Metaphorical framing in political discourse through words vs. concepts: a meta-analysis // – Cambridge University Press: Language and Cognition, – March 2019. Volume 11, Issue 1, – p.41-65; Wilson K. G. The Columbia Guide to Standard American English. / G.K. Wilson. – New York: Columbia University Press, – 1993. – 500 p.; Гневэк, О.В. К проблеме лингвистической диагностики инвективы // – Москва: изд-во РАН, Проблемы истории, филологии, культуры, – 2014. №3 (45), – с.381-384; Kessler, M.S. The role of surrogate speakers in the 1980 presidential campaign: [Electronic resource]

Amerika populizminin diskurs semantikası, onun verbal strategiyaları və taktikaları, təkrar konseptuallaşmasının linqvistik prosesləri, konsept freymlərinin genişlənməsi və populist leksik birləşmələrin səciyyəvi xüsusiyyətləri C.Aleksandr, C.Batler, İ.Zavalnyuk və İ.Xolod, C.Lakoff, M.Lokhart, S.Lukas, C.Merçant, C.Müller, S.Nurmanova, C.Rakel, S.Soroka və K.Ulzeyn, R.Stark, Ç.Fillmor, C.Turner, D.Hemel[3] kimi müəlliflərin əsərlərində araşdırılmışdır.

---

// Quarterly Journal of Speech, – 1981. №67(2), – p.146–156. URL: https:// doi.org /10.1080/00335638109383561.; Littlemore, J. Metonymy: Hidden Shortcuts in Language, Thought and Communication / J. Littlemore. – Cambridge: Cambridge University Press, – 2015. – 240 p.; Reeves, A. US Presidential Campaigns and Their Impact – Political Science: [Electronic resource] /A. Reeves, D. Miller, B. Moy. – Oxford. – 2018. URL: https://andrewreeves.org/papers/ electionsbib.pdf.; Pease, A and Brewer, P The Oprah Factor: The Effects of a Celebrity Endorsement in a Presidential Primary Campaign: [Electronic resource] //Sage Journals, – October 2008. Volume 13, Issue 4. URL: https:// journals. sagepub. com/doi/10. 1177/1940161208321948?utm_source=researchgate.net&utm_medium=article.; Worton, M. Intertextuality: Theories and Practices. / M. Worton, J. Still. – Manchester: Manchester University Press, – 1991. – 208 p.

[3] Alexander, J.C. The Performance of Politics: Obama's Victory and the Democratic Struggle for Power. / C.J. Aleksander. – Oxford University Press, – 2012. – 384 p.; Butler, J. We, the people: Thoughts on Freedom of Assembly. //J. Butler, A. Stagnell, G.D. Strandberg /Populism and the People in Contemporary Critical Thought: Politics, Philosophy, and Aesthetics. – London: Bloomsbury Academic, – 2023. – 258p.; Zavalniuk, I. Lexical-syntactical repetition in the system of stylistic figures: status, specification, functions: [Electronic resource] //I. Zavalniuk, I. Kholod, V. Bohatko / – Czech Republic, AD ALTA: Journal of Interdisciplinary Research, – 2022. Vol. 12 (1), – p.268-274. URL: https://www. magnanimitas.cz/ ad-alta-journal-of-interdisciplinary -research.; Framing the issues: UC Berkeley professor G. Lakoff tells how conservatives use language to dominate politics: [Electronic resource]. URL: https://newsarchive.berkeley.edu/news/media/releases /2003/10/27.; Lockhart, M. President Donald Trump and His Political Discourse / L.Michele. – Philadelphia: Routledge, – 2018. – 214 p.; Lucas S.E. The Art of Public Speaking / S.E. Lucas, P. Stob. – New York: McGraw-Hill, – 2011. – 382 p.; Merchant, J. The Syntax of Silence: Sluicing, Islands, and the Theory of Ellipsis. / J. Merchant. Oxford Studies in Theoretical Linguistics. – Oxford University Press; 1st edition, – October 25, – 2001. – 278 p.; Muller J.W. Parsing populism: Who is and who is not a populist these days?: [Electronic resource] / J.W.Muller. –Newcastle: The Institute for public policy research – 2015. URL: https:// www. ippr.org/articles/ parsing-

Tədqiqatın istiqaməti və metodlarının seçilməsində Azərbaycan dilçilərindən K.M.Abdullayev, F.Y.Veysəlli, Ə.Ə.Abdullayev, A.Y.Məmmədovun[4] əsərləri əhəmiyyətli rol oynamışdır. N.Mədətovanın[5] tədqiqatında natiqlik nitqinin informativliyinin formalaşması və onun üslubi xüsusiyyətlərinin müqayisəli təhlili

---

populism-who-is-and-who-is-not-a-populist-these-days; Nurmanova, S.F. Understanding the Idiostyle Phenomenon: [Electronic resource] // International Journal of Multidisciplinary Research and Analysis, – January 2023. Volume 06 Issue 01, – p.108-110. URL: https://www.ijmra.ijpbms. com/v6i1/ Doc/14.pdf.; Racquel, J.G. Double Negative: The Black Image and Popular Culture. / J.G. Racquel. – Durham: Duke University Press Books, – 2018. – 248 p.; Soroka, S.N., Ch. Wlezien, Media Reflect! Policy, the Public, and the News. // – Cambridge: American Political Science Review, Cambridge University Press, – 2024. vol. 118(3), – p.1563-1569; Stark R.J. Clichés and Composition Theory: [Electronic resource] // A Journal of Composition Theory, – 1999. Vol. 19, №3, – p.453-464. URL: https://www.jstor.org/stable/20866255.; Fillmore, Ch.J. Frame semantics Linguistics in the morning calm: Selected papers from the SICOL-1981/ Ch.J.Fillmore. – Seoul: Hanship, – 1982. – 772 p.; Turner, G. Understanding celebrity. / G.Turner. – Los Angeles: SAGE, – 2014. – 171 p.; Daniel, H.J. The Law, Economics, and Politics of Polysemy: [Electronic resource]. / J.H. Daniel. – New Haven. – March 8, – 2022. URL: https://law.yale.edu/sites/ default/files/ area/center/corporate/spring2022_paper_hemeldaniel_3-17-22.pdf

[4] Abdulla, K.M. Dilçiliyə səyahət və yaxud dilçi olmayanlar üçün dilçilik / K.M.Abdulla. – Bakı: Mütərcim, – 2010. – 200 s.; Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. – Bakı: Maarif, – 1999. – 284 s.; Veysəlli, F.Y. Dilçiliyin əsasları. I hissə. Dilin daxili strukturu / F.Y.Veysəlli. –Bakı: Mütərcim, –2013. – 420 s.; Veysəlli, F.Y. Diskurs təhlilinə giriş / F.Y.Veysəlli. –Bakı: Təhsil: NPM, –2010. – 141 s.; Veysəlli, F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2015. – 120 s.; Abdullayev, Ə.Ə. Aktual üzvlənmə və mətn / Ə.Ə.Abdullayev. – Bakı: Xəzər Universitetinin Nəşriyyatı, – 1998. – 190 s.; Abdullayev, Ə.Ə. Mətni anlama modelləri / Ə.Ə.Abdullayev. – Bakı: Səda, –1999. – 345 s.; Məmmədov, A.Y. Mətn yaradılmasının formal əlaqə vasitələri sistemi. /A.Y.Məmmədov. – Bakı: Elm, – 2001. – 144s.; Məmmədov, A.Y. Diskurs təhlilinin koqnitiv perspektivləri / A.Y.Məmmədov, M.Y.Məmmədov. – Bakı: Çaşıoğlu, – 2010. – 96 s.; Məmmədov, A.Y. Diskurs tədqiqi / A.Y.Məmmədov, M.Y.Məmmədov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2013. – 78 s.

[5] Мадатова, Н.А. Формирование информации и стилистический аспект ораторской речи (на материале английского, азербайджанского и русского языков): /Автореферат дис. доктор философии по филологии/ –Баку: ADU. 2016. – 24с.

verilmişdir. Müasir Amerika populizminin üslubi xüsusiyyətlərinin ətraflı təhlilində B.İ.Hacıyevin[6] mətnin məntiqi-semantik təhlili ilə bağlı araşdırmaları və E.İ.Hacıyevin[7] ingilis dilində köməkçi nitq hissələrinin funksional imkanlarına dair tədqiqatları faydalı olmuşdur.

Azərbaycan dilçiləri müəyyən rakurslarda Amerika siyasi diskursunun ritorikasının təhlilinə təsir edən bəzi linqvistik problemləri işıqlandırmışlar: fərdi nitqin subyektiv amillərlə dilin obyektiv amilləri arasındakı əlaqə, ritorik sualların siyasi nitqin qavranılmasına təsiri, sintaktik bütövün yaranmasında leksik təkrarların rolu, parlament nitqinin ritorikası və arqumentasiya vasitələrinin səciyyəsi, cümlədən kənarda yerləşən dil vahidlərinin intonasiyasına dair psixolinqvistik problemlər və kommunikativ kompetensiya.

Aparılmış təhlil indiyə qədər Amerika populizminin ritorikasının diskursiv təhlilinə dair ən perspektivli istiqamətlərin kompleks linqvistik tədqiqatın predmeti olmadığını göstərir və bu dissertasiyada mövcud boşluğun aradan qaldırılmasına cəhd edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir siyasi diskursda populizm konseptlərinin ritorik ifadəsi və onların linqvistik xüsusiyyətləri təşkil edir. Tədqiqatın predmeti ABŞ siyasi diskursunda populizmin iki əks istiqamətli ideoloji cərəyanın linqvistik vasitələrlə əks olunduğu konseptləri təqdim edən Amerika siyasətçilərinin şifahi və yazılı nitqinin ritorik üslubunun təhlilinin ümumiləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir Amerika siyasi diskursunda populizmin ritorik üslubunu təhlil etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

– populizmin diskursiv təhlilinin əsaslarını üzə çıxarmaq;

---

[6] Hacıyev, B.İ Mətnin semantik-semiotik təhlili / B.İ.Hacıyev. – Bakı: Elm, – 2005. – 208 s.

[7] Hacıyev, E.İ. Müasir ingilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional semantik xüsusiyyətləri / E.İ.Hacıyev. – Bakı: Mütərcim, – 2006. – 272 s.

– ABŞ-da populist ritorikanın linqvistik ənənələrini və Amerika populist diskursunun məğzi əsaslarının leksik-semantik freymini araşdırmaq;

– müasir Amerika populist diskursun ritorikasının linqvokoqnitiv aspektlərini təhlil etmək;

– Amerika siyasi diskursunda populist ritorikanın leksik-semantik və üslubi xüsusiyyətlərini üzə çıxarmaq;

– ABŞ-da populist diskursun müasir verbal strategiyalarının səciyyəvi xüsusiyyətlərini təhlil etmək;

– Amerika populist ritorikasında verbal suqqestiya və verbal persuaziv təsirin taktikalarını araşdırmaq;

– seçki kampaniyalarında surroqat spikerlərin populist ritorikasının leksik-semantik xüsusiyyətlərini müəyyənləşdirmək;

– müasir Amerika populist ritorikasının linqvistik ifadəli vasitələrinin xüsusiyyətlərini təhlil etmək;

– ABŞ populist diskursunda modallığın ifadə üsulu kimi sintaksisin ifadəli vasitələrini araşdırmaq;

– müasir Amerika siyasi diskursunda populizmin leksik ifadəli vasitələrini təsvir etmək.

**Tədqiqat metodları.** Dissertasiyada dili kommunikasiya vasitəsi kimi nəzərdən keçirən diskursiv təhlil üsulundan istifadə edilmişdir. Struktur-funksional metodun tətbiqi amerikalı siyasətçilərin populist söyləmlərinin üslubi və ritorik dil sistemliliyi prinsiplərini müəyyən etməyə imkan vermişdir. Dil faktlarının təhlili metodu seçki kampaniyalarında populist siyasətçilər və onların surroqat spikerləri üçün səciyyəvi dil və üslubi-mətn xüsusiyyətlərinin məcmusu kimi idiostilin öyrənilməsinə yönəlmişdir. Siyasi konseptlərin troplarının linqvistik reprezentasiyası və onların təkrar konseptuallaşması metodu, konseptual metaforlar, metonimiyalar və metonimik tipli semantik yerdəyişmələrin təhlili ilə birgə tətbiq edilmişdir ki, bu da ABŞ-da populist diskursun verbal strategiya və taktikalarını aşkara çıxarmağa imkan vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

– müasir Amerika siyasi diskursunda populist ritorika mədəni-tarixi və siyasi-iqtisadi diaxron və sinxron verbal kommunikasiyalar əsasında formalaşmış substansional bazisə malikdir;

– Amerika populizminin freymlərinin tənqidi təhlili müasir Amerika populist ritorikasının leksik-semantik və üslubi xüsusiyyətlərini substansional ənənəvi konseptlərin təkrar konseptuallaşmasını diskurs forması kimi nəzərdən keçirməyə imkan verir;

– populist ritorikanın xüsusi verbal strategiyası daim ABŞ-ın Müstəqillik Bəyannaməsi və Konstitusiyasının populist diskursuna müraciət edən ABŞ siyasətçisinin ictimai çıxışında "xalq üçün arqument" (argumentum ad populum) prinsipi ilə ifadə olunur;

– populist ritorikanın verbal strategiyalarının ritorik təcəssümündə əsas rol sloqanlara məxsusdur. Sloqan həm siyasi mətnin kiçik janrı, həm də dominant diskurs konsepti ilə manipulyasiya edən səmərəli üslubi üsuldur;

– surroqat kampaniyaların spikerlərinin nitqləri aydın fərdi idiolektlərlə seçilir;

– metonimik tipli semantik yerdəyişmə Amerika populizminin üslubi xüsusiyyəti kimi həm sol liberal, həm də sağ mühafizəkar siyasətçilərin nitqlərində müşahidə olunur;

– ABŞ-da son iki seçki kampaniyası opponentlərin tənqidində ənənəvi leksik-semantik siyasi dözümlülük ənənəsini dağıtmış və invektiv leksikanı (kobud sözlər, təhqirlər) həm xarici, həm də daxili siyasi diskursun tərkib hissəsinə çevirmişdir;

– hazırkı prezident D.Trampın məna və üslub baxımından mühüm yüklü populist sloqanlarının mətnlərinin ritmik-sintaktik strukturu və keçmiş prezident B.Obamanın rep üslublu çıxışları populist diskursun ritorik ifadəliliyin yeni nümunəsidir;

– ABŞ populist diskursunun iki antoqonist vektorun nümayəndələrinin ritorik üslubu trop və leksik ifadə vasitələrinin – metafor, metonimiya, invektiv və sarkazmların istifadəsi baxımından eynidir. Lakin leksik-sintaktik təkrarlar və ritorik suallar Amerika populizminin sol radikal və sağ mühafizəkar vektorunun siyasətçilərinin çıxışlarında fərqli üslubi tonallıqda işlədilir. Sağçı mühafizəkar vektorun siyasətçilərinin ritorikasında yüksək tezlikli leksik-üslubi ifadə vasitələri öz tərəfdarlarını qələbəyə ruhlandırmaq, solçu radikal vektorda isə siyasi rəqiblərə təzyiq göstərmək vasitəsi kimi istifadə olunur.

**Tədqiqatın elmi yeniliyi.** ABŞ populist ritorikasının linqvistik ənənələri, leksik-semantik freyminq və Amerika populizm diskursunun substansional əsaslarının təkrar konseptuallaşmasının müqayisəli şəkildə təhlil edildiyi bu iş müasir Azərbaycan dilçiliyində Amerika populist ritorikasının milli-mental planda araşdırılması istiqamətində ilk cəhdlərdən biridir. Tədqiqatda dilçilik elminin metodoloji imkanları çərçivəsində ABŞ-ın son iki seçki kampaniyasının, o cümlədən 2024-cü il mitinqləri, indiki prezident D.Tramp və onun rəqiblərinin seçkidən sonrakı ilk ildə populist çıxışları da daxil olmaqla, yazılı materialları əsasında ritorikanın təhlili aparılmışdır. Dissertasiyada Amerika populist ritorikasının müasir verbal strategiya və taktikaları, habelə surroqat spikerlərin ritorikasının leksik-semantik xüsusiyyətləri araşdırılmışdır. Bu fenomen ABŞ-da müasir ictimai məkanın ritorikləşməsi problemi ilə bağlıdır. İşdə sübut olunur ki, metonimik tipli semantik sürüşmələr ABŞ-ın milli siyasi konseptlər sisteminə xasdır və Amerikanın siyasi diskursunun bütün ideoloji istiqamətlərin populistlərinin çıxışları üçün səciyyəvidir. Populist ritorika siyasi konsepti, müəyyən leksik-semantik üslubu və populist nitqin siyasi ifadəliliyini yaradan dil vasitələrini özündə birləşdirən xüsusi nitq janrı kimi nəzərdən keçirilir. Diskursiv semantika populist freym və blendlərin yaradılmasında nitqin ardıcıllığını formalaşdıran diskursun siyasi konseptlərinin dil strukturu vasitəsi ilə təhlil olunur. Sloqan Amerika Birləşmiş Ştatlarının siyasi ritorikasının leksik emosionallıq və eyni zamanda incə mətnaltı semantika daşıyan kiçik janrı kimi araşdırılır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti müasir Amerika siyasi diskursunun populist ritorikasının nitq fəaliyyətinin funksional cəhətdən xüsusi şərtlənmiş forması kimi elmi təhlilə cəlb edilməsindən ibarətdir. Tədqiqatda populist ritorikanın inteqral və diferensial xüsusiyyətləri, habelə verbal strategiyalar və taktikaların sistemli təhlili onun tərəfdarlarının səfərbərliyi, müxalifətin formalaşdırılması, rəqiblərin legitimləşməsinin pozulmasında potensial imkanları üzə çıxarılır və bu model digər dil sistemində siyasi diskursların oxşar tiplərinin təhlilində istifadə oluna bilər.

Tədqiqatın praktiki əhəmiyyəti onun nəticələrinin ingilis dilinin tədrisi praktikasında, xüsusilə ingilis dilinin praktik və nəzəri qrammatikası üzrə mühazirə və seminar kurslarının hazırlanmasında, ingilis dilində ünsiyyət və nitqlə təsir nəzəriyyəsi və təcrübəsi problemlərinə dair xüsusi kurslarda, eləcə də ingilis dilində praktik bacarıqların tədrisində tətbiqinin əlçatanlığı və perspektivliliyi ilə müəyyən edilir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu ilə bağlı müxtəlif elmi konfranslarda məruzələr edilmiş, tezislər dərc olunmuş, həmçinin yerli və xarici jurnallarda məqalələr çap edilmişdir. İngilisdilli populist mətnlərin diskursiv təhlili, eləcə də tədqiqatın nəticələri ingilis dilinin leksikası, ritorika və üslubiyyat üzrə xüsusi kursların hazırlanması, elmi məqalələr, o cümlədən dissertasiya işləri və monoqrafiyaların yazılmasında istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 9 səhifə, 13715 işarə, I fəsil 32 səhifə, 53526 işarə, II fəsil 41 səhifə, 69375 işarə, III fəsil 38 səhifə, 64286 işarə, nəticə 3 səhifə və 4996 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 205898 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə tədqiqatın mövzusunun aktuallığı əsaslandırılmış, onun öyrənilmə dərəcəsi araşdırılmış, tədqiqatın obyekti və predmeti müəyyən edilmiş, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan müddəalar, elmi yenilik və tədqiqat metodları, işin nəzəri və praktiki əhəmiyyəti, həmçinin strukturuna dair məlumatlar verilmişdir.

**“Amerika siyasi diskursunda populist ritorikanın formalaşmasında linqvokoqnitiv amillər”** adlı I fəsildə diskurs

anlayışı mürəkkəb verbal struktur, şifahi və yazılı formalarda obyektivləşən fenomen kimi təhlil olunur. ***"Populist diskursun linqvistik təhlilinin əsasları"*** adlı birinci paraqrafda diskursun tematik şərtlənməsi və onun səciyyəvi xüsusiyyətləri: yaranma motivasiyası, ritorik formada ifadə olunan ideyalar, faktlar və arqumentlərlə zənginləşmə, emosional-psixoloji təsir gücü, danışıq aktının nəticəliliyi araşdırılır. Diskursun semantik sıralama ilə ifadə olunan məzmun funksiyası, məzmunun ifadə formasını müəyyənləşdirən leksik səviyyə və diskursun üslubi registri, yəni siyasi situasiyaya adekvat dil vasitələrinin tonallığı araşdırılmışdır. A.Y.Məmmədova görə, *"diskurs təhlili mental modelləri öyrənmədən aparıla bilməz, çünki onlar həm ümumi, həm də xüsusi semantik strukturların formalaşması kimi strateji məqsədlər üçün zəruri kommunikativ informasiyanın seçilməsinin real əsasını verir"*[8].

"*Siyasi diskursun bir neçə vektorunun formalaşması,* – T.A. van Deykin də hesab etdiyi kimi, – *onun linqvistik institusional-laşmasının ən mühüm əlamətidir*[9]. Amerika siyasi diskursunun ritorik janrı olan populizm leksik və qrammatik səviyyədə linqvistik konstruksiyalar formalaşdıraraq manipulyativ nitq strategiya və taktikalarını yaradır.

Siyasi diskurs polisemantik həcmli strukturla fərqlənir. Dəqiq diskursiv sərhədlərin yoxluğu siyasətçiyə ritorik vasitələrdən istifadə zamanı manipulyasiya etməyə və onları konkret siyasi situasiyaya uyğun aktuallaşdırmağa imkan verir. Məsələn, 2024-cü ildə keçirilən mitinqlərdə Trampın nitqlərinin ilk paraqrafları "*It's time to unite*" (Birləşmək zamanıdır) kimi birlik çağırışları ilə başlayırdı. Lakin ona qarşı sui-qəsddən sonra Tramp diskursunu kəskin şəkildə dəyişdi, ölkəni xilas etmək kimi öz borcunu rəqiblərinin aqressiv ritorikasına qarşı qoydu: *"Their rhetoric is causing me to be shot at, when I am the one who is going to save the country, and they are the ones that are destroying the country - both from the inside and out"* (Onların

[8] Məmmədov, A.Y. Diskurs təhlilinin koqnitiv perspektivləri /A.Y.Məmmədov, M.Y.Məmmədov. – Bakı: Çaşıoğlu, – 2010. – s. 22.
[9] Dijk, T.A. van. Discourse, Power and Access. In: Texts and Practices: Readings in Critical Discourse Analysis. /T.A. van Dijk. – Philadelphia, Routledge, – 1995. – p.86.

ritorikası səbəbindən mənə atəş açırlar, halbuki məhz mən ölkəni xilas etməliyəm, onlar isə ölkəni həm daxildən, həm də xaricdən dağıdırlar)[10].

Beləliklə, ingilis dilinin özünəməxsusluğu ritorik çeviklik baxımından natiqə siyasi diskursun sərhədlərini genişləndirməyə və diskursun siyasi konseptlərində freym və vurğuları dəyişərək müxtəlif verbal strategiyalar və taktikalardan istifadə etməyə imkan yaradır.

***"ABŞ-da populist ritorikanın linqvistik ənənələri və Amerika populizmi diskursunun substansional əsaslarının leksik-semantik freyminqi"*** adlı ikinci paraqrafda ABŞ-ın Müstəqillik Bəyannaməsi diskursunun dəyər konseptlərinin ritorik üslubu, onların leksik-sintaktik ifadə vasitələri və həmin konseptlərin təkrar konseptuallaşmasının linqvistik prosesi araşdırılır. Populizm anlayışı ilk dəfə məhz ABŞ-da 1890-cı illərdə Xalq Partiyasının (People's Party) fəaliyyəti ilə əlaqədar yaranmışdır. Senatda bu partiyanı klassik Roma hüququna istinadən latın dilində "populus" (xalq) sözündən törəyən "populist" adlandırmağa başlamışdılar. ABŞ-da populizm anlayışı mənfi konnotasiya daşımır, çünki o, daha çox siyasətçilərlə yox, xalqla assosiasiya olunur. Birləşmiş Ştatlar populizminin institusional janrında xalq suverenliyi konsepti *"We the People"* ifadəsi "argumentum ad populum" (xalqa arqument) adlanan ritorik texnikanın əsasını qoymuşdur. Xalq suverenliyinin təkrar konseptuallaşması metonimik tipin semantik sürüşməsinin üç mərhələsindən keçmiş və yeni leksik-semantik freymlər yaranmışdır: "*the struggle between the common people and the encroachments of organized wealth*" (sadə xalq və mütəşəkkil sərvətin qəsbləri arasında mübarizə); "*good guys vs bad guys*" (yaxşı uşaqlar pis uşaqlara qarşı); "*huge conspiracy against humanity*" (bəşəriyyətə qarşı böyük sui-qəsd); "*secret conspiracy of world elites*" (dünya elitalarının gizli sövdələşməsi)[11].

---

[10] US politics: Trump, without evidence, blames Biden and Harris for assassination attempt: [Electronic resource]. URL: https://www.theguardian.com/us-news/article/2024/aug/28/trump-blames-biden-harris-assassination-attempt

[11] Bryan's "Cross of Gold" Speech: Mesmerizing the Masses: [Electronic resource]. URL: https://historymatters.gmu.edu/d/5354/

Elitaların sui-qəsdi və “dərin dövlət” haqqında leksik-semantik freymlər D.Trampın bir neçə mitinq çıxışında inkişaf etdirilmiş və hakimiyyətin media ilə qovuşması anlayışı ilə genişləndirilmişdir: *“the Clintons and the Clinton-media complex the are persecuting him for what he described as a concerted attempt to not only smear him but to disenfranchise”* (Klintonlar və Klintonların media kompleksi onu ona görə təqib edirlər ki, o, təkcə onu qaralamaq yox, həm də onu seçki hüququndan məhrum etməyi razılaşdırılmış cəhd adlandırmışdır)[12].

*“We the People” (Biz xalqıq)* konseptinin yeni virtual freymini yaradan linqvistik fenomeni Trampı dəstəkləyən, internetdə xalq suverenliyinin bərpası diskursunu təqdim edən “QAnon” qrupu nümayiş etdirir: *“Don't worry. We the People, who taking back our country”* (Narahat olmayın. Biz, ölkəmizi geri qaytaran xalqıq)[13].

Anti-elitar populist konseptlər, sol liberal və sağ mühafizəkar diskursların rəqabətli strukturlarında hüquq və azadlıq freymləri Amerika populist diskursunun çağdaş populist ritorikasının dil vahidləri, verbal strategiya və taktikalarının linqvomental əsasına çevrilmişdir. ABŞ-da populist ritorikanın linqvistik ənənələri və diskursun substansional əsaslarının leksik-semantik freyminqi Amerika siyasi diskursunun mürəkkəb verbal sistem kimi davamlılıq və inkişaf qabiliyyətini təmin edir.

**“Müasir Amerika siyasi diskursunda populist ritorikanın leksik-semantik və üslubi xüsusiyyətləri”** adlı II fəsildə Birləşmiş Ştatların siyasətçiləri və onların surroqat spikerlərinin verbal strategiya və taktikaları təhlil olunur. Amerika siyasi diskursunun strategiya və taktikalara aid dil markerləri kimi leksik, qrammatik, fonosemantik və sintaktik səviyyələrin vahidləri çıxış edir. ***“ABŞ populist diskursunun müasir verbal strategiyalarının səciyyəsi”*** adlı birinci paraqrafda diskursun intensiya obyektinin qiymətinin

[12] US election: Donald Trump's five lines of attack on Clinton: [Electronic resource] /–22 June, – 2016. URL:https://www.bbc.com/news/world-us-canada-36592975

[13] How Qanon uses satanic rhetoric to set up a narrative of ‘good vs. evil’: [Electronic resource]. URL: https://theconversation.com/how-qanon-uses-satanic-rhetoric-to-set-up-a-narrative-of-good-vs-evil-146281/

yüksəldilməsi və ya azaldılmasının verbal strategiyasını təyin edən müəllif diskursunun leksik-semantik və üslubi xüsusiyyətləri araşdırılır. Diskurs konseptlərinin kontrastiv fərqliliyində ABŞ prezidentliyinə namizədlərin müasir populist ritorikasında ən çox istifadə olunan verbal strategiya – *"I will be the president of all Americans"* (Mən bütün amerikalıların prezidenti olacağam) leksik klişesi ilə ifadə olunur. Lakin namizədlərin fərdi verbal strategiyaları siyasətdə öz dəyərini artırmaq və rəqibin nüfuzunu azaltmaq kimi ritorik oyunla fərqlənir. Məsələn, məşhur virtual şəbəkədə yalnız bir kəskin mənfi konnotasiyalı ekspressiv ifadə – "*I hate Taylor Swift*"[14] (Mən Taylor Sviftə nifrət edirəm) – yazan D.Tramp rəqibi K.Harrisin ictimai dəstəyini aşağı salmaq üçün verbal strategiyasını reallaşdırdı. Təhqirə cavab isə Trampın namizədliyini rədd edən xalqın rolunu aydın müsbət konnotasiya ilə ifadə edən verbal yüksəliş strategiya ilə gəldi. Seçilmiş verbal strategiya K.Harrisin diskursunu seçicilər üçün daha da cəlbedici etdi: *"The American people want to be out of the woods of the chaos and division of the Trump era, leave behind the blank space of Trump's broken promises, and begin again by electing Vice President Harris to ensure America's future of opportunity is long lived"* (Amerika xalqı Trampın xaos və parçalanma dövründən qurtulmaq, Trampın yerinə yetirilməmiş vədlərinin boşluğunu arxada qoymaq və Amerika üçün uzunmüddətli gələcək imkanlar təmin etmək məqsədi ilə vitse-prezident Harrisi seçməklə yenidən başlamaq istəyir)[15].

Gətirilmiş sitatda izahlı budaq cümlələrinin ifadəli təkrarı ilə Trampın idarəçiliyinin neqativ obrazı yaradılır. Daha sonra antitez üsulu ilə verbal strategiya Kamala Harrisin ABŞ prezidenti postuna ən yaxşı namizəd kimi nüfuzunu kəskin şəkildə artırır. Antitez "*the woods of the chaos and division – ensure America's future*" (xaos və parçalanma meşəsi – Amerikanın gələcəyini təmin edir) Amerika

[14] Trump says 'I hate Taylor Swift' after pop star endorses Kamala Harris: [Electronic resource]. URL: https://www.cnbc.com/2024/09/15/trump-says-i-hate-taylor-swift-after-pop-star-endorses-kamala-harris.html
[15] Kamala Harris Campaign Cites Taylor Swift Lyrics In Response To Trump's Meltdown: [Electronic resource]. URL: https://deadline.com/2024/09/kamala-harris-campaign-taylor-swift-lyrics-response-trump-meltdown-1236088338/

üçün ən yaxşı gələcəyin seçim imkanı diskursunu yaradır. 2024-cü ilin seçki rəqabətində ABŞ-ın hər iki aparıcı partiyasının liderləri kəskin aqressiv ritorika nümayiş etdirdi, populizmi aşağı üslubi registrdə təqdim edərək verbal üslublarını gündəlik danışıq səviyyəsinə endirdilər. Amerika populizminin verbal strategiyalarının subyektiv modallığını təqdim edən dominant vasitə aqressiya və mənfi qiymətləndirmə mənaları ifadə edən semantik komponentlərin (semlərin) olduğu qiymətləndirmə leksikasıdır.

Amerika populizminin verbal strategiyalarında ən mühüm rol siyasi diskursda funksional rolu müasir dilçilikdə hələ də birmənalı anlaşılmayan sloqanlara aiddir. Ritm, qafiyə və ya alliterasiya, yəni ifadəliliyi gücləndirmək məqsədi ilə eyni sait səslərin təkrarlandığı sloqanlar, diskursun verbal strategiyasını əhəmiyyətli dərəcədə gücləndirir[16]. Bu fəsildə 2024-cü ilin seçki kampaniyasında iştirak edən amerikalı siyasətçilərin on sloqanı təhlil edilmişdir. Bu sloqanlar ABŞ populist diskursunun bütün spektrini əhatə edir. "*Make America Great Again*" (MAGA) sloqanı 2024-cü ilin seçki mitinqlərində siyasi təsir vasitəsi kimi ritorikanın gücləndirilməsinin verbal strategiyası funksiyasını tam yerinə yetirən yeganə sloqan idi. Sloqanın leksik aydınlığı və dəqiq şəkildə bütün millətə ünvanlanması Amerikanı Prezident Reyqan idarəçiliyi dövrünün uğurlarına qaytarmağa çağırırdı. MAGA sloqanı leksik, emosional və siyasi ifadəliliyi ilə fərqlənir. Təhlil göstərir ki, ABŞ Respublikaçılar Partiyasının liderləri verbal strategiyalarında öz sol liberal rəqibləri ilə müqayisədə sloqanlardan səmərəli üslubi vasitə kimi daha çox istifadə edirlər. Sloqan, fikrimizcə, Amerika siyasi diskursunun verbal strategiyalarının leksik-semantik və üslubi xüsusiyyəti kimi qiymətləndirilməlidir. Sloqan verbal strategiyalarda konkret siyasətçinin idioüslubunu və dil kimliyini təqdim edir.

***"Amerika siyasi diskursunun populist ritorikasında verbal suqqestiya və verbal persuaziv təsir taktikaları"*** adlı ikinci paraqrafda danışıq aktlarının illokutiv gücünə malik, danışanın niyyəti və ya kommunikativ məqsədini nida, sual, vəd, təklif, təhdid və xəbərdarlıq vasitəsi ilə ifadə edən qrammatik vasitələr təhlil edilir.

[16] Safire, W. Political Dictionary. / W.Safire. – Oxford University Press, – 2008. – p.145

“*Rally round the flag effect*” (Bayrağın ətrafında birləşmə effekti) adlı verbal taktika mürəkkəb şəraitdə liderin xalqa birbaşa müraciətini təşkil edir və onun dəstəyini artırır. “*Ad Populum Fallacy*” (Xalqın yanlış yönləndirilməsi) verbal taktikasında isə “post-truth” (post-həqiqət) effekti yaradan “doğru – yalan” kimi ikili qarşılaşmanın birləşdiyi “lexical blends” (leksik qarışıqlar) formalaşır.

2024-cü il seçki yürüşündə Baydenin əksər çıxışları “Ad Populum Fallacy” verbal taktikasına əsaslanırdı, burada o, respublikaçı prezidentlər Tramp və Huveri alçaldıcı şəkildə müqayisə edərək iki xüsusi ad və soyaddan “*Donald Herbert-Hoover Trump*” kimi leksik qarışıq yaratmışdı. Bu leksik qarışıq bir mənanı – iqtisadiyyatın çökməsini ifadə edir: “*President Hoover's rule caused the Great Depression. While you work hard and pay your taxes, Trump’s coming for your money, your health care, your Social Security*” (Prezident Huverin hakimiyyəti Böyük depressiyaya səbəb oldu. Siz ürəklə çalır və vergilərinizi ödəyirsiniz, Tramp isə sizin pulunuzu, tibbi sığorta və sosial təminatınızı ələ keçirmək üçün gəlir)[17]. Üslubi leksik qarışıq hər prezidentin adı və soyadının mənfi siyasi proseslə əlaqələndirildiyi konseptual metaforu və yaxınlığına görə prezident anlayışını idarəetmə hərəkətlərinin öhdəliyinin üzərinə köçürən metonimiyanı birləşdirir. Mənanın köçürülməsində iki obyektin oxşar və yaxınlıqlarının iştirak etdiyi qarşılıqlı izah və tamamlama kimi ikisəviyyəli prosesi blendin metaftonimiyasını yaratmışdır.

Verbal təlqinin (suqqestiyanın) diskurs taktikalari kəskin qarşılaşmaya, rəqabət aparan populist konseptlərin ritorik antitezinə əsaslanır və ümumişlək leksika, danışıq ekspressiyaların güclənməsi, ötürülən informasiyanın subyektiv qiymətləndirilməsi, faktoloji dəqiqlik, məntiqi ardıcıllıq və fikirlərin aydın olmaması ilə səciyyələnir.

***“ABŞ siyasi diskursunda surroqat spikerlərin populist ritorikasının leksik-semantik xüsusiyyətləri”*** adlı üçüncü paraqrafda

---

[17] Remarks by President Biden at a Campaign Event Scranton, PA: [Electronic resource].URL:https://bidenwhitehouse.archives.gov/briefing-room/speeches-remarks/2024/04/16/remarks-by-president-biden-at-a-campaign-event-scranton-pa/

ABŞ prezidentliyinə namizədin seçki kampaniyasını dəstəkləyən surroqat spikerlərin nitqinin praqmatik funksiyası təhlil edilir. Surroqat diskurs emosional ritorika və konkret siyasətçinin obrazı və fəaliyyəti ilə əlaqələndirilən sosial yönümlü semantik nümunələndirmə (ekzemplifikasiya) ilə fərqlənir. Surroqat spikerlər şəxsi-populist konseptlə şəxsiyyət yönümlü reprezentasiya effekti yaradırlar.

Surroqat spikerlərin populist diskursu ritorik vurğulama, ritorik təkrarlar və suallar, bir freymdən digərinə məntiqi-semantik keçidlər, metaforik hiperbolalar və leksik allüziyalar kimi ifadəli vasitələrdən istifadə etməklə formalaşır. Məsələn, amerikalı aktyor Çak Norris D.Trampa səs verməyə çağırış edərkən namizədin peşəkar və insani keyfiyyətlərini xüsusi qabardırdı: *"an excellent candidate for US President and a real man"* (ABŞ prezidentliyinə möhtəşəm namizəd və əsl kişi).

Surroqat spikerin verbal taktikası rinqdə dəfələrlə qalib gəlmiş idmançı təcrübəsi ilə Trampı nümunə göstərməkdən ibarət idi: "*When I met him, he asked why I was leaving. I replied: "Donald, I'm 34 years old, I've been champion for 6 years. I want to leave as a winner." Donald thought for a second and replied: "I understand"* (Onunla görüşəndə niyə getdiyimi soruşdu. Mən cavab verdim: "Donald, mən 34 yaşındayam, 6 ildir çempionam. Qalib kimi getmək istəyirəm". Donald bir anlıq düşündü və dedi: "Başa düşürəm"). Aktyorun diskursundakı nümunələndirmə strategiyası onun son ifadəsində açılır: *"We must all hang together or we will surely hang separately"* (Hamımız bir yerdə olmalıyıq, əks halda ayrı-ayrılıqda bizi mütləq asacaqlar)[18].

Çak Norrisin ritorikası ikili nümunələndirmə xarakteri daşıyır, çünki iqtibas gətirilən söyləm ABŞ Konstitusiyasının mətninin müəllifi Bencamin Franklinə məxsusdur. Aktyorun populist diskursu Franklin, Tramp və Norrisin özünün şəxsi-siyasi əlaqə konseptini ehtiva edir, çünki hər üçü özlərini qalib kimi təqdim edir və şəxsi ləyaqətə dəyər verirlər. Siyasətçi ilə surroqat spikerin nitqlərinin

---

[18] Norris warns of '1,000 years of darkness' if Obama re-elected: [Electronic resource]. URL: https://abcnews.go.com/Politics/OTUS/chuck-norris-warns-1000-years-darkness-obama-elected/story?id=1715203

leksik-semantik həmcinsliliyi ritorik üslubun birliyini, diskursun konseptlərinin ifadəliliyinin güclənməsini təmin və seçki kampaniyasının məqsədini qeyd edir.

**"Amerika populist diskursunun ritorikasının linqvistik ifadə vasitələrinin xüsusiyyətləri"** adlı III fəsildə müasir ritorik üsulların, dil-ifadə vasitələrinin istifadəsi, ritorik neytrallıqdan imtina və seçicilərə manipulyativ təsir göstərmək məqsədi ilə siyasi nitqin bilərəkdən bəzədilməsi təhlil edilir. ***"Sintaksisin ifadə vasitələri ABŞ populist diskursunda modallıq yaratmaq aləti kimi"*** adlı birinci paraqrafda populist diskursun üslubi fiqurlar sistemində leksik-sintaktik təkrarların rolu, ritorik sualların sintaktik konstruksiyalarının populist diskursun effektivliyinə təsiri, eləcə də müasir populist ritorikada inversiyaların səciyyəsi araşdırılır.

Birgə fəaliyyətləri qeyd edən eyni semantikalı təkrarlanan leksemlər daha çox demokratların populist diskursu üçün səciyyəvidir. Gələcək niyyətləri barədə məlumat verən C.Bayden onlardan tez-tez istifadə edirdi: "*We are going to have fantastic trade deals. We are going to start making money and bringing in jobs*" (Bizdə möhtəşəm ticarət razılaşmaları olacaq. Biz pul qazanmağa və iş yerləri yaratmağa başlayacağıq)[19]. Kamala Harris isə seçicilərə birgə fəaliyyət təklif edirdi: "*Let's turn the page on this. Let's not go back*" (Gəlin, bu səhifəni çevirək. Gəlin, geri qayıtmayaq)[20].

Respublikaçı Tramp, əksinə, ritorik məqamları öz şəxsiyyətinə yönləndirir. D.Trampın ritorikasına parselyasiya, pleonazm və epizevksisin emosional təsir ilə yüklənmiş leksik-semantik təkrarlarla yaradılmış emfatik sintaktik konstruksiyalar xasdır. Evansvill şəhərində söylədiyi nitqdə Trampın diskursunun intensiyası onun həmişə qalib gəldiyini hər kəsə aşılamaq istəyinə cəmləşmişdi. Trampın istifadə etdiyi mürəkkəb sintaktik konstruksiya bu diskursun intensiyası ilə izah olunur. Bu konstruksiya qapanan dövri leksik-

---

[19] Remarks by President Biden at a Campaign Event Scranton, PA: [Electronic resource].URL:https://bidenwhitehouse.archives.gov/briefing-room/speeches-remarks/2024/04/16/remarks-by-president-biden-at-a-campaign-event-scranton-pa/

[20] Harris-Trump presidential debate transcript: [Electronic resource]. URL: https://abcnews.go.com/Politics/harris-trump-presidential-debate-transcript/story?id=113560542

sintaktik təkrarlar əsasında yaradılmış, sadə ikiüzvlü cümlələr zəncirindən ibarət olub, “winner” (qalib) sözünü əlavə etməklə və mənaca təkrarlanan sözlərin izafi təkrarını ifadə edən pleonazm üslubi fiquru ilə tamamlanır: *“Winners are winners. We love winner. We love winner. We love winners. Winners are winners. We love winners. Our country is becoming a winner, and our country is respected again. You see that…”* (Qaliblər qaliblərdir. Biz qalibi sevirik. Biz qalibi sevirik. Biz qalibləri sevirik. Qaliblər qaliblərdir. Biz qalibləri sevirik. Ölkəmiz qalib olur və ölkəmizə yenidən hörmət edilir. Görürsünüz...)[21]. Nitqin son cümləsi yenə də *“You see that…”* (Görürsünüz…) ellipsisi ilə bitir və bu da sözlərin bilərəkdən buraxıldığını göstərir, çünki Tramp qaliblər barədə artıq hər şeyi demişdir.

Bu paraqrafda demokrat Berni Sanders və respublikaçı Marko Rubionun 2024-cü il mitinqlərindəki ritorik sualları müqayisə edilir. M.Sandersin populist ritorikasında sintaktik xüsusiyyət gənc, gender-neytral və irqindən asılı olmayan şəxsin – “*gender neutral non-racial person*” – öz-özünə ritorik suallar şəklində verdiyi “*implicit speech*” daxili monoloqunun təqlidi formasıdır:

“*What is going on? This is the wealthiest country in the history of the world — why am I still living at home? Why can’t I afford healthcare?”* (Nələr baş verir? Bu, dünya tarixinin ən zəngin ölkəsidir – niyə mən hələ də ailəmlə yaşayıram? Niyə tibbi sığortaya pulum çatmır?)[22]. Marko Rubio diskursu ekzistensional səviyyəyə qaldırır və ritorik suallar da buna leksik-semantik cəhətdən uyğun gəlir:

*“What will the world look like if America declines? Who’s going to create the innovations of the 21st century?”* (Əgər Amerika

---

[21] Trump (R) has won. An estimated 98 percent of Indiana votes: [Electronic resource].URL:https://www.washingtonpost.com/elections/election-results/indiana-2020/

[22] Bernie Sanders on Labor’s Future and Why Democratic Socialists Keep Winning. An exclusive interview with Sen: [Electronic resource] / B. Sanders. URL: https://inthesetimes.com/features/bernie_sanders_interview_labor_janus_democratic_socialism_teacher_strikes_medicare_for_all.html.

tənəzzülə uğrayarsa, dünya necə görünəcək? İnsan potensialının sərhədlərini kim genişləndirəcək və yeni üfüqlər kəşf edəcək?)[23].

Müasir Amerika populist diskursunda Trampın nitqləri xüsusi ekspressiv sintaksisinə görə fərqlənir. O, təkrarlanan cümlələri tez-tez üç nida işarəsi ilə tamamlayır və diqqəti ritorik təkrar vasitəsi ilə səsləndirdiyi qərarlara çəkir. Müasir Amerika populist ritorikasında dərin dövlət, korrupsiya, qanunsuz əldə edilmiş var-dövlət və sosial ədalətsizlik (*deep state, corruption, ill-gotten wealth, social injustice*) kimi anlayışları əks etdirən leksik təkrarlar geniş yayılıb.

Tədqiqatda təqdim edilən ABŞ siyasi diskursunun populist ritorikasında inversiyanın işlənməsi halları belə qənaətə gətirir ki, sözlərin inversiv ardıcıllığı olan cümlə siyasətçinin rəsmi nitq üslubunu danışıq dilinə yaxınlaşdırır və auditoriya tərəfindən daha yaxşı qavranılır. Ritorik təkrarlar və siyasi rəqibləri qəzəblə tənqid edən ritorik suallar liberal istiqamət siyasətçiləri arasında ən çox işlədilən qrammatik ifadə vasitələridir. Konservativ istiqamətli siyasətçilərin ritorikasında isə leksik-sintaktik təkrarlar və ritorik suallar öz tərəfdarlarını qələbəyə ruhlandırmaq üçün istifadə edilir.

***“Müasir Amerika siyasi diskursunda populizmin leksik ifadə vasitələri”*** adlı ikinci paraqrafda metaforlar və metonimiyanın rolu və invektiv leksikanın nitqə təsirində aktual meyillər təhlil edilir. Konseptual metaforlar və metonimiya təhdid və gərginlik yaratmaq üçün ən çox istifadə olunan leksik vasitələrdir. Konseptual metaforların nümunələrində onların funksional potensialı analogiya üzrə predmet və ya hadisənin mənasının ötürülməsi yolu ilə populist ritorikaya xüsusi ifadəlilik verən məcaz kimi təhlil edilir. Metaforlar həm siyasətçinin özünün dil kimliyini, həm də onun təbliğ etdiyi diskurs konseptlərini obrazlı şəkildə təqdim edir. Metafor siyasətçiyə konsept yaratmağa, şifahi çıxışa və ya yazılı mətnə daha çox ekspressivlik və semantik ardıcıllıq vermək imkanı yaradır.

Trampın Şimali Koreya liderinə verdiyi sarkastik ontoloji metafor “Rocketman” onun yalnız qısaboylu deyil, həm də kiçik ölkənin adamı və güclü Trampı təhdid etməməli olduğunu bildirir:

---

[23] Rubio and American “Decline”: [Electronic resource]. URL: https://www.theamericanconservative.com/rubio-and-american-decline/

*“Rocketman should have been handled long ago”* (Raket adamla məsələ çoxdan həll edilməli idi”)[24].

2024-cü il mitinqində Kamala Harris “*unburdened by what has been*” (keçmişin yükündən azad olmuş) çoxmənalı konseptual metaforu ilə keçmiş siyasi səhvlərdən azad olmaq diskursunu inkişaf etdirmişdi. Harris öz anasının övladlarına dediyi sözləri sitat gətirmişdi: *“You think you just fell out of a coconut tree? You exist in the context of all in which you live and what came before you*” (Düşünürsən ki, sən indicə kokos palmasından düşmüsən? Sən yaşadığın hər bir şeyin və səndən əvvəl baş verənlərin kontekstində mövcudsan)[25].

Auditoriyaya kinayəli mənanı anlamağa və ya siyasətçinin demədiklərini tamamlamağa kömək edən təsirli ifadə vasitələrindən biri metonimiyadır. Prezident F.Ruzvelt işsiz epitetini – “unemployed” – ilk dəfə metonimiya ilə –- *“the forgotten man at the bottom of the economic pyramid*” (iqtisadi piramidanın dibində unudulmuş adam) – dəyişmişdi[26].

Metonimik sürüşmə – leksik təkrarlar və böyük hərflərlə yazmaq (CapsLock) Trampın 2024-cü il seçkisində manipulyasiya üçün istifadə etdiyi verbal taktikalardandır. O, dövlət tərəfindən unudulmuş, arxa plana atılmış kişilər və qadınlara onların artıq unudulmayacaqlarını vəd etdi: “*To all of the forgotten men and women who have been neglected, abandoned, and left behind, you will be forgotten no longer. We will press forward, and together, we will WIN, WIN, WIN! Nothing will sway us. Nothing will slow us, and no one will stop us*” (İndiyədək unudulmuş, laqeyd yanaşılmış, kənara atılmış və geridə qalmış bütün qadın və kişilərə: siz artıq unudulmayacaqsınız. Biz irəli gedəcəyik və birlikdə QƏLƏBƏ QAZANACAĞIQ, QƏLƏBƏ QAZANACAĞIQ, QƏLƏBƏ

[24] Elton, John. Says Donald Trump Calling Kim Jong Un ‘Little Rocket Man Was ‘Brilliant’: [Electronic resource]. URL: https://variety.com/2024/film/news/elton-john-donald-trump-kim-jong-un-nickname-brilliant-rocket-man-1236136630/

[25] The many identities of the first woman vice-president: [Electronic resource] / – 10 September, – 2024. URL: https://www.bbc.com/news/articles/c2501n5rvvno.

[26] Franklin, D. Roosevelt Radio Address: [Electronic resource] / – April 7, – 1932. URL: https://www.presidency.ucsb.edu/documents/radio-address-from-albany-new-york-the-forgotten-man-speech

QAZANACAĞIQ! Bizi heç nə yolumuzdan döndərə bilməz. Heç nə bizi ləngidə bilməz və heç kim bizi dayandıra bilməz)[27]. Hesab edirik ki, konseptual metaforun ifadəli təsiri mətn daxilində bir-birindən uzaq iki və ya daha çox konseptual sahənin vəhdəti, metonimiyanın ekspressiv effekti isə populizmin siyasi diskursunun eyni konseptual sahəsinin elementləri arasında semantik yaxınlıq ilə əldə edilir. Məsələn, C.Vensin populist diskursunda "*the forgotten man*" metonimik dönüşü metonimiyanı artıq "Paslı Kəmər" birliyinə – "*all the forgotten communities…*" (bütün unudulmuş icmalar) – yaydı[28].

Konseptual metafor və metonimiyanın nitqdə ifadəlilik səviyyəsini müqayisə etdikdə qeyd etmək olar ki, hər iki nitq fiquru mühüm üslubi əhəmiyyətə malikdir və konseptlərin emosional qavranışını dəyişdirir. Konseptual metafor üçün zəruri ifadəli effekt siyasətçinin diskursu bir-birindən uzaq iki və ya daha çox konseptual sahənin vəhdətində əldə edilir. Metonimiyanın ifadəli təsiri üçün isə populizmin siyasi diskursunun eyni konseptual sahələrinin elementləri arasında semantik yaxınlıq münasibətləri xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqat Amerika populist diskursunda, xüsusən də 2024-cü ilin seçki kampaniyasında ekspressiv və invektiv leksikanın istifadəsində aşkar artım müşahidə olunduğunu göstərir. İctimai şüura emosional təsiri gücləndirmək üçün invektivlər sadə nitq konstruksiyalarına görə fərqlənir. Müasir Amerika populist diskursunda invektivlərin semantik nüvəsi əsasən leksemlərdən ibarətdir. İnvektivliyin funksional-semantik kateqoriyalarının periferiyası isə qrammatik və sintaktik vasitələrlə təmsil olunur. Mətndə leksik-semantik nüvə ilə periferiyanın invektivliyinin funksional-semantik kateqoriyalarının vəhdəti təkcə konkret siyasətçinin deyil, həm də onun seçicilərinin təhqir edilməsi kimi qəbul olunur.

---

[27] As Donald Trump wraps up his remarks at the Republican National Convention he says "we will press forward and we will win: [Electronic resource]. URL: https://x.com/ABC/status/1814150650281816327/

[28] Vance makes direct appeal to his native Rust Belt: [Electronic resource]. URL: https://www.ironmountaindailynews.com/opinion/columns/2024/07/vance-makes-direct-appeal-to-his-native-rust-belt

Nəticə hissəsində aparılmış tədqiqatın məzmunundan irəli gələn nəticələr və ümumiləşmələr təqdim edilir:

1. Amerika populist diskursu nisbətən sabit tematik, kompozisiya və üslubi xüsusiyyətlərə malik şifahi və yazılı mətn növünü təşkil edir. Amerika diskursunun populist ritorikası müxtəlif dil vahidlərinin qarşılıqlı əlaqəsi və təsiri üzərində təşəkkül tapır və tənzimləmə, nəzarətetmə, inandırma və məlumatlandırma funksiyalarını yerinə yetirən siyasi diskursun məna və struktur ritorik bütövlüyünü təmin edir.

2. İlk dövlət quruculuğu sənədi "ABŞ-ın Müstəqillik Bəyannaməsi" Amerika siyasi diskursunun bütün populist istiqamətlərinin semantik nüvəsidir və onun təməl əsaslarını və siyasi nitqinin milli ritorik ənənələrini formalaşdırmışdır.

3. Müasir populist konseptlərin verballaşması prosesi ritorik semantik yerdəyişmələrin təkrarlanması, yeni leksik-semantik freymlərin formalaşması və Amerika siyasi diskursunun məğzi əsaslarının təkrar konseptuallaşması üçün üslubi tərtibi ilə səciyyələnir. Ritoriklik ABŞ diskursunun təkrar konseptuallaşmasının verbal təsir imkanlarını genişləndirir.

4. Ritoriklik sözlü strukturun xüsusi kateqoriyası kimi, populist, seçicilər tərəfindən asan başa düşülən siyasi konseptləri ifadə edir ki, bu da Amerika siyasi diskursunun rasional və effektiv olmasına xidmət edir. ABŞ-ın siyasi ritorikasında möhkəm kök atmış milli dil ənənələri, söz birləşmələri və sintaktik konstruksiyaların leksik cəhətdən stereotipik nümunələrinin linqvistik fonunda yeni verbal strategiya və taktikalar dinamik şəkildə formalaşır. Amerika siyasi ritorikasının müasir üslubu çox vaxt həm neqativ, həm də həddindən artıq həvəsləndirici üslubi registr üzərində qurulmuş güclü emosional konnotasiyalı üslubi vahidlərdən ibarətdir. 2024-cü ildə ABŞ-da seçki kampaniyaları çox vaxt siyasi cəhətdən qeyri-korrekt, hətta invektiv leksikaya malik ekspressiv üslubi registrə görə fərqlənirdi.

5. Ekspessiv ritorik strategiya və taktikalar populizmi ABŞ siyasi diskursunun aparıcı janrı kimi qəbul etməyə imkan verir. Linqvistik strategiya siyasətçinin danışıq hərəkətlərinin məcmusu, onun auditoriyaya emosional təsir göstərmək üçün linqvistik üsullar və dil vasitələrindən istifadə tərzidir. Siyasətçinin kommunikativ

məqsədi və şəxsi üslubunda populist konseptlərin intensiyasını ifadə edən ritorik strategiyalar danışıq aktının illokutiv gücünə malikdir. ABŞ populistlərinin nitq strategiyalarının fərdi leksik-üslubi formaları qiymətləndirmə leksikasının subyektiv modallığı ilə səciyyələnir.

6. Nitqlərin sloqanlarla zənginliyi Amerika populist ritorikasının fərqli əlaməti kimi qəbul edilməlidir. Bunlar populist diskursun konkret dominant konsepti və siyasətçinin dil kimliyini səciyyə edir. Amerika sloqanı kiçik siyasi mətn janrı kimi, diskursun dominant konsepti, siyasətçinin siyasi nitqinin mürəkkəb sinergetik mətni, sətiraltı məna və gizli məna ilə bağlıdır. Sloqan verbal strategiyanın təsirini gücləndirən vasitə kimi siyasətçinin şəxsi mövqeyinin əsas ideyasını obrazlı şəkildə ifadə edir və geniş seçici kütləsinin siyasi seçiminə effektiv təsir göstərir. Mühüm məna və üslubi yük daşıyan populist sloqanların ritmik-sintaktik təşkilini 2024-cü il seçki kampaniyalarında siyasi diksursun ritorik ifadəsinin yeni vasitəsi kimi qəbul etmək olar.

7. Ritorik taktika qrammatik asılılıq münasibətində olan sintaktik və morfoloji vahidlərin zəncirvari (katen) birləşməsindən ibarət eyni üsulların kombinasiyasını təmsil edir. Emosional təsiri gücləndirən üslubi zəncirlərə ritorik suallar və təkrarlar, ritorik paralellər, vurğulama və ellipsis daxildir. Amerika populistlərinin nümayəndələri öz çıxışlarında parsellyasiya, pleonazm, epizevksis və inversiya daxil olduğu ekspressiv sintaktik nitq fiqurlarından tez-tez istifadə edirlər. Ritorik taktikanın leksik-sintaktik vasitələrinin cəmi rəqibdə emosional reaksiya və auditoriyada isə ekspressiv cavab doğurur.

8. Populist diskursun nitq strategiyaları və taktikaları monosemantik, leksik-semantik və sintaktik səviyyələrdə həyata keçirilir və danışıq dili və ekspressivliyin gücləndiyi ümumişlək leksika ilə səciyyələnir. Dil strategiyaları və taktikalarının seçimi siyasətçinin dil kimliyi və ritorik səriştəsi ilə müəyyən edilir. Ritorik üslubun bu şəxsi amilləri siyasətçinin ötürdüyü informasiyanın son dərəcə subyektiv qiymətləndirilməsini izah edir. Şəxsi ritorik kompetensiya siyasətçinin populist diskursunda real faktla onun şərhi arasındakı fərqi bərabərləşdirən "*truth – lie*" (doğru–yalan) ikili qarşılaşmaların leksik blendlərində özünü göstərir.

9. Müasir Amerika populist ritorikasında dərin dövlət, korrupsiya, qanunsuz yolla qazanılmış sərvət, sosial ədalətsizlik (*deep state, corruption, ill-gotten wealth, social injustice*) kimi məsələlərin rolunu qabardan semantik təkrarlar üstünlük təşkil edir. Konseptual metaforlar və metonimiyalar təhdid və gərginlik yaratmaq üçün ən çox işlədilən leksik vasitələrdir. Ritorik təkrarlar və siyasi rəqibləri qəzəblə qınayan suallar liberal siyasi meyilli siyasətçilərin ən çox istifadə etdiyi qrammatik ifadəli vasitələrdir. Konservativ istiqamətli siyasətçilərin ritorikasında isə leksik-sintaktik təkrarlar və ritorik suallar öz tərəfdarlarını qələbəyə ruhlandırmaq vasitəsinə çevrilir.

***Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:***


1. Искендерли, М.Х. Политические и социальные предпосылки возникновения популизма как концепта в современном американском политическом дискурсе // – Bakı: AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Dilçilik araşdırmaları, – 2019. № 1, – с.217-224.
2. Mammadov, A., Memmedbeyli, A., Isgandarli, M. Cognitive function of repetition in English discourse // “Researching Metaphor: Cognitive and Other” International conference, – Genoa, Italy: – 13-15 May, – 2019, – p.83
3. Искендерли, М.Х. Метонимия как средство вербализации популизма в современном американском политическом дискурсе // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2020. № 3-4, – с.38-42.
4. Mammadov, A., Isgandarli, M. Repetitions in the Political Discourse of President Donald Trump, Influence, Manipulation, and Seduction. // Interdisciplinary Perspectives on Persuasive Language” International conference, – Switzerland: University of Basel, – 20-21 November, – 2020, – p.54-55.
5. Искендерли, М.Х. Роль метафор в политическом дискурсе // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2021. № 1(115), – с.83-85.

6. Isgandarli, M.Kh. The Role of Metaphors in the Political Discourse of American Politicians, Manuscripts Don't Burn // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, – 2021. №1, – p.105-113.
7. Искендерли, М.Х. Популизм и глобализация // "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" adlı V Beynəlxalq elmi konfrans. – Bakı: Azərbaycan Dillər Universiteti, – 28 aprel, – 2022, – s.114-115.
8. Искендерли, М.Х. Лексические повторы в современном американском политическом дискурсе // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. №2, – с.105-112.
9. Isgandarli, M.Kh. Populist Rhetoric in Political Interviews //– Slovakiya: Path of Science: International Electronic Scientific Journal, – 2022. Vol.8, No 12, – p.3015-3020. DOI: 10.22178/pos.88-16
10. Isgandarli, M.Kh. Inversion in modern American political discourse // XI Respublika Elmi Qaynaqlar Konfransı. "Elmi İş" Beynəlxalq elmi jurnal. – Bakı: AEM, – 14 yanvar, – 2023, – s.26-29. https:// 10.36719/2663-4619/2023/4/11
11. Искендерли, М.Х. Слоганы в современном американском популистском дискурсе в эпоху глобализации // XIV Международная научно-практическая конференция «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации» (шифр – МКСТР) – Москва, – 10 мая, – 2023, – с.223-226.
12. Mammadov, A., Isgandarli, M. Linguistic and Rhetorical Features of Donald Trump's Communication Style // – Bulgaria: "Rhetoric and Communications" E-Journal. – October 2023. Issue 57, – p.7-21. https://doi.org.10.55206/TLGC2544, ERIH PLUS
13. Искендерли, М.Х. Лингвистическая динамика популизма: вопросительные предложения в современном американском популистском политическом дискурсе // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya

məsələləri, – 2024. №2, – c.223-231. https://doi.org/10.62837/2024.2.223
14. Isgandarli, M.Kh. Populism as a Concept in Contemporary American Political Discourse // “Elmi araşdırmalar” XX Beynəlxalq elmi konfrans, “Elmi iş” beynəlxalq elmi jurnal, – Bakı: AEM, – 07.09.2024. – s.42-45. https://doi.org/10.36719/2663-4619/2024/XX

Dissertasiyanın müdafiəsi 22 may 2026-cı il tarixində saat 13:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 21 aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.04.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 37960 işarə

Tiraj: 30